## COĞRAFİ TƏHSİL

© F.Q.Niftiyev

# LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNDA ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN ƏRAZİ TƏŞKİLİNƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏRİN ÖYRƏNİLMƏSİ

**F.Q.Niftiyev**

*AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutu*
*AZ 1143, Bakı ş., H. Cavid pr., 115*

Məqalə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda ümumtəhsil məktəblərinin ərazi təşkilinə və inkişafına, bu sahənin müəssisələrinin ərazi baxımdan yerləşdirilməsi məsələlərinə həsr olunmuşdur. Məqalədə həmçinin region daxilində onların səmərəli fəaliyyət göstərməsinə təsir göstərən təbii-coğrafi, iqtisadi və sosial amillər araşdırılır.

Təhsil sahəsi iqtisadiyyatın tələbatına uyğun ixtisaslı kadrların hazırlanması məqsədini güdür. Ölkə əhalisinin təhsil və eyni zamanda, mədəni səviyyəsinin yüksəlməsi təhsilin keyfiyyətindən, ümumtəhsil müəssisələrində tədris prosesinin səmərəli təşkilindən asılıdır. Təhsilin keyfiyyətinin artırılması ölkənin gələcək elmi-texniki potensialının, ümumi sosial-iqtisadi inkişaf səviyyəsinin artırılmasına, regionların gələcək inkişafına təsir göstərən çox mühüm amildir. Təhsil sahəsi ümumi iqtisadi sistemin, o cümlədən istehsalın inkişafına, elmi-texniki tərəqqiyə, eyni zamanda ixtisaslı, dünyagörüşlü kadrların yetişdirilməsi və hazırlanması üçün zəruri olan peşə biliklərinin verilməsinə xidmət edir. Bununla əlaqədar bəzi elmi ədəbiyyatlarda ümumi daxili məhsulda təhsilin rolu və ya əksinə, ÜDM-in artımı ilə təhsilə ayrılan vəsaitin çoxalması problemləri qarşılıqlı öyrənilir.

Təhsil mürəkkəb proses olaraq ardıcıl və kompleks təşkil edilir. Bu sistemin daxili elementləri ibtidai, orta, ali təhsil müəssisələri olmaqla, vahid məqsədə yönəldilir. Ümumiyyətlə, təhsil sistemi ümumi iqtisadi sistemin tərkib hissəsi olmaqla, ölkədə əhalinin sayı, onun məşğulluğu, ərazicə yerləşməsi problemlərinin həll olunmasında vacib amil sayılır. Çünki təhsilin müasir standartlara uyğun təşkili və idarə olunması, kadrların dünya ölkələri tərəfindən qəbul olunması və təhsilin insanların həyat səviyyəsindəki rolu ilə müəyyənləşir. Təhsil ictimai əmək bölgüsündə və ya bazarın formalaşmasında xüsusi çəkisinə görə hər bir ölkədə mühüm rol oynayır. Təhsil sahəsində işləyənlərin sayı, onların əmək haqqı, təhsilə ayrılan vəsait, təhsil alanların ümumi sayı, təhsilin mülkiyyət formalarına görə bölgüsü, təhsilin birbaşa və dolayı yolla ÜDM-in, iş qüvvəsinin, istehlakın formalaşmasında rolu bu sferanın iqtisadi rolunu müəyyən edir [5, s.153].

Yaponiyanın müasir yüksək iqtisadi inkişafında lokomotiv rolunu təhsil sistemi oynamışdır. Yaponiyada təhsil sistemi yüksək səviyyədə təşkil olunmaqla, bugünkü yeni və yüksək səviyyəli texnologiyaların və böyük iqtisadi potensialın əldə olunmasına mühüm təsir göstərmişdir. Qeyd olunanlar ölkənin və onun regionlarının iqtisadi gücünün möhkəmlənməsində, həyat tərzinin yaxşılaşdırılmasında təhsilin bilavasitə oynadığı roldan xəbər verir [1, s. 184].

Təhsil prosesi müasir dövrdə çoxpilləli sistem kimi fəaliyyət göstərir. Azərbaycanın təhsil sisteminə məktəbəqədər təhsil müəssisələri, ümumtəhsil müəssisələri, orta məktəblər, peşə məktəbləri, orta ixtisas məktəbləri və ali təhsil müəssisələri daxildir. Birinci pillədə məktəbəqədər müəssisələrin fəaliyyətinin planlaşması, ikinci pillədə ümumtəhsil məktəb, lisey, gimnaziya sisteminin planlaşması və tənzimlənməsi, üçüncü pillədə isə ali və orta təhsil səviyyəsi nəzərdə tutulur [5, s.158].

Təhsil müəssisələrinin əksəriyyətini ümumtəhsil məktəbləri təşkil edir. Ümumtəhsil məktəbləri gələcəyin ixtisaslı kadrlarının formalaşmasında mühüm rol oynayır. Azərbaycandakı orta ümumtəhsil məktəbləri 9 və ya 11 illik təhsili əhatə edir.

90-cı illərin sonlarında və ondan sonrakı illərdə əhalinin yaş strukturunda gedən dəyişikliklərlə – əhalinin doğum əmsalının azalması və orta məktəb yaşında (6-17 yaş) olanların xüsusi çəkisinin aşağı enməsi ilə əlaqədar ümumtəhsil məktəblərində oxuyanların sayında azalma müşahidə olunmuşdur. Bu azalma Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda da baş vermişdir.

Dövlət Statistika Komitəsinin materiallarının təhlili göstərir ki, 1995-2012-ci illərdə gündüz ümumtəhsil məktəblərində oxuyanların sayı Astara rayonunda 19773 şagirddən 16592 şagirdə, yaxud 19,2%, Cəlilabad rayonunda 35089-dan 28316-ə və ya 23,9%, Lerik rayonunda 15225-dən 8294-ə və ya 83,6%, Lənkəran rayonunda 39236-dan

28665-ə və ya 36,9%, Masallı rayonunda 36201-dən 26925-ə və ya 34,5%, Yardımlı rayonunda 11637-dən 895-ə və ya 13,0% enmişdir. Göründüyü kimi, şagirdlərin azalması daha çox Lerik rayonunda, həm də Lənkəran və Masallı rayonlarında baş vermişdir. Təhlil olunan dövrdə Lənkəran-Astara iqtisadi rayonunda müvafiq göstərici 157161 şagirddən 109687 şagirdə, yəni 43,3% enmişdir.

Ümumtəhsil müəssisələrində təhsil alan şagirdlər arasında ikinci və üçüncü növbədə oxuyanların xüsusi çəkisində də müəyyən dəyişikliklər baş verir. İki və üç növbəli tədrisin məhdudlaşdırılması tədris prosesinin keyfiyyətinə müsbət təsir göstərən amildir. Bu baxımdan iqtisadi-coğrafi rayonda müsbət tendensiya müşahidə olunur. Belə ki, Dövlət Statistika Komitəsinin materiallarına əsasən, 1995-2012-ci illərdə ikinci və üçüncü növbədə oxuyan şagirdlərin payı Astara rayonunda 22,8%-dən 11,3%-ə, Cəlilabad rayonunda 41,9%-dən 28,0%-ə, Lerik rayonunda 34,4%-dən 18,6%-ə, Lənkəran rayonunda 41,6%-dən 20,0%-ə, Masallı rayonunda 27,0%-dən 10,3%-ə, Yardımlı rayonunda isə 39,9%-dən 12,6%-ə enmişdir. Beləliklə, bütün inzibati rayonlarda göstərilən qrupdan olan şagirdlərin payında əhəmiyyətli (2 dəfəyə yaxın və daha çox) azalma baş vermişdir. Bu, iqtisadi rayonda yeni məktəblərin tikintisinin və köhnə məktəblərin rekonstruksiyasının aparılması, bununla da məktəb şəbəkəsinin şagird tutumunun artırılmasının nəticəsidir. Belə ki, regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilmiş dövlət proqramlarına uyğun olaraq, Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda çoxlu sayda ümumtəhsil müəssisələri tikilib istifadəyə verilmişdir [3,4].

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda ümumtəhsil müəssisələrində tədris prosesinin keyfiyyətli təşkil olunmasına, məktəblərin böyüklüyünə və tutumuna bir çox amillər, o cümlədən elmi-texniki tərəqqi şəraitində biliklərin yenilənməsi və dinamik olaraq daim genişlənməsi, əməyin xarakterində və təsərrüfat münasibətlərində gedən dəyişikliklər, yerli iqtisadi şəraitin özünəməxsus cəhətləri, bir sıra sosial amillər təsir göstərir. Sosial-iqtisadi və onunla bağlı olan iqtisadi-coğrafi və təşkilat-pedaqoji faktorlar birbaşa olaraq ümumtəhsil müəssisələr şəbəkəsinə və onun regiondaxili konfiqurasiyasına təsir edir. Buna görə də sosial infrastrukturun bu mühüm sahəsinin tədqiqi zamanı fiziki-coğrafi, demoqrafik və məskunlaşma şəraitinin, təsərrüfatın və nəqliyyat şəbəkəsinin ərazi təşkilinin nəzərə alınması tələb olunur.

Ümumtəhsil müəssisələrinin inkişafı və təkmilləşdirilməsi həm şəhərlərin ərazisində, həm də kənd yerlərində yerli şəraitin mümkün qədər çox nəzərə alınmasını şərtləndirir. Məktəblərin yerləşdirilməsi, onların daha rasional ərazi təşkili əhali miqrasiyasının xarakterinə, məşğulluğun təmin olunmasına və sosial inkişafdakı qeyri-proporsionallığın aradan qaldırılmasına təsir göstərir [6]. Bəzi lokal ərazilərdə orta məktəblərin məskunlaşmanın xarakterinə və planlaşdırmanın təşkilinə müvafiq olmayan həddən artıq konsentrasiyası kapital qoyuluşu prosesinin səmərəli nəticə verməsini çətinləşdirir. Məktəblərin səmərəli ərazi təşkili ilə bağlı problemlər iri rayon mərkəzləri olan Lənkəran və Cəlilabad kimi şəhərlər üçün daha aktual əhəmiyyət kəsb edir.

Şəhər ərazilərinin müəyyən hissələrində yeni məktəblərin şəhər ərazisinin morfoloji xüsusiyyətləri nəzər alınmadan tikilməsi yaxınlıqda yeni tikililərin yaranmasına səbəb olur. Eyni zamanda, iqtisadi-coğrafi rayondakı iri kəndlərin bəzilərində iki və daha artıq sayda məktəb fəaliyyət göstərir ki, onlar da kəndin əhalisinin sürətlə artması şəraitində planlaşma strukturuna qeyri-uyğundur. Bu baxımdan məktəblərin inkişafının və ərazi təşkilinin iqtisadi-coğrafi tədqiqi məsələsində bu prosesə təsir göstərən amillərin öyrənilməsi, həmçinin regional inkişaf imkanlarını, məhsuldar qüvvələri və məskunlaşma sistemini nəzərə almaqla, ümumtəhsil məktəblərinin əsas problemlərinin müəyyən olunması mühüm rol oynamalıdır.

Təbii-coğrafi amillər arasında relyef amili məktəblərin inkişafına praktiki olaraq güclü maneə yaratmasa da, regionun sosial-iqtisadi sisteminin tərkib hissəsi olan sənaye, nəqliyyat və tikinti kimi sahələrin inkişafına müəyyən qədər təsir göstərir. Bu da təhsil müəssisələrinin fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edir. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun qərb və cənub-qərb hissələrində dağlıq ərazilərin geniş yayılması ilə əlaqədar şagirdlərin xüsusilə qış mövsümündə başqa kəndlərdə yerləşən məktəblərə gedib-gəlməsi çətinləşir, müvafiq nəqliyyat xərcləri artır və hətta internat məktəblərinin təşkilinə ehtiyac yaranır. Buna görə də bəzi tədqiqatçıların qeyd etdiyi kimi, məktəb şəbəkəsinin idarəetmə strukturunun daha çevik, elastik fəaliyyət göstərməsi, ərazi planlaşdırmasının təkmilləşdirilməsi şəraitində rayon məktəb şəbəkələrinin müasir tələblər səviyyəsində qurulması vacibdir. Bu zaman problemə geodemoqrafik aspektdən yanaşma da zəruridir. Belə ki, rayon məktəb şəbəkəsinin səmərəli ərazi təşkili uşaqların sayını və tərkibini, əhalinin miqrasiyasını nəzərə almağı tələb edir. Təhsil sahəsinin və onun müəssisələrinin ərazi təşkili yerli təsərrüfatın strukturu ilə müqayisədə ziddiyyət təşkil etməməlidir.

Qeyd etmək lazımdır ki, regionların inkişafına dair müxtəlif dövlət proqramlarının reallaşması ilə

əlaqədar Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda məktəblərin yenidən bərpası, əsaslı təmiri və yaxud yenilərinin tikilməsi istiqamətində xeyli əhəmiyyətli işlər görülmüşdür. Bununla belə, regionda ümumtəhsil müəssisələrinin inkişafı ilə bağlı bir sıra problemlər gələcəkdə öz həllini tapmalıdır. Bununla əlaqədar aşağıdakı bəzi məsələləri qeyd etmək olar.

Kənd məktəblərində oxuyan şagirdlərin sayı şəhərlərdəkinə nisbətən çoxdur. Lakin iqtisadi-coğrafi rayonun şəhərlərində və qəsəbələrin çoxunda təhsil müəssisələrinin müəllim heyətinə olan tələbatı əsasən ödənildiyi halda, kənd yaşayış məntəqələrində, xüsusən Yardımlı, Masallı, Lerik rayonları üzrə müəyyən fənlərdən müəllim çatışmazlığı problemi özünü göstərir. Bəzi hallarda müəllim çatışmazlığı ilə əlaqədar həmin sənətin sahibləri öz ixtisasına uyğun olmayan fənlərdən dərs keçməyə məcbur olurlar. Bəzən hətta iri kənd məktəblərinin daha savadlı müəllim heyəti qonşu, yaxud uzaq kəndlərdən gəlir və bu amil soyuq mövsümdə müəllimlərin işə gecikməsi, bəzən dərs buraxması, bununla da tədris prosesində fasilə və ləngimələrin yaranmasına gətirib çıxarır.

Məktəblərin şagird tutumu və onlarda oxuyan şagirdlərin xüsusi çəkisi əhalinin yaş strukturu ilə həmahəng olmalıdır. Lakin məskunlaşmanın coğrafiyası ilə məktəb şəbəkəsinin yerləşməsi arasında disproporsiyalar mövcuddur. Tədqiqatlar göstərir ki, dağlıq ərazilərdə kəndlərin ərazi üzrə pərakəndə və seyrək paylanması səbəbindən həmin arealda sosial infrastruktur sahələrinin zəif inkişafı müşahidə olunur, bu da öz növbəsində məktəblərin şagirdlərlə zəruri sayda təmin olunmasına, pedaqoji kadrların səmərəli istifadəsinə mane olan amildir.

Müasir dövrdə tədqiq olunan iqtisadi-coğrafi rayonda nəinki kənd məktəblərinin, hətta bəzi qəsəbə və şəhər məktəblərində müvafiq avadanlıqlarla təchiz olunmuş sinif otaqlarına, coğrafiya, biologiya, fizika, kimya və s. kabinetlərinə, müasir və rahat kitabxanalara, habelə keyfiyyətli idman meydançalarına daha geniş ehtiyac vardır.

Bir çox şəhər məktəblərində ikinövbəli tədris prosesinin aparılması əhalinin nisbətən sürətlə artdığı bir şəraitdə şagirdlərin sayının çox, sinif otaqlarının və müəllimlərinin isə az olması ilə əlaqədardır. Şagirdlərin bir hissəsinin hələ də özləri arzu etmədikləri halda ikinci növbədə oxumaları onların evə gec, yorğun qayıtmasına səbəb olur və əlavə problemlər yaradır. Məktəblərin yerləşdiyi ərazilərdə infrastrukturun yaxşı inkişaf etməməsi səbəbindən azyaşlı şagirdlər üçün məktəbə gediş-gəlişlə bağlı çətinliklər yaranır. Bununla yanaşı, dağlıq ərazilərdə məktəblərin xeyli hissəsinin hələ də istilik sistemi ilə təchiz olunmasında problemlər mövcuddur.

Beləliklə, kənd məktəblərinin ərazi təşkilində, onların ölçüsünün planlaşdırılmasında əhalinin məskunlaşma xüsusiyyətlərinin, kənd yaşayış məntəqələrinin böyüklüyünün, əhalinin sıxlığının, onun digər kəmiyyət və keyfiyyət göstəricilərinin və nəhayət, nəqliyyat amilinin nəzərə alınması vacibdir.

### Ədəbiyyat

1. Abdullayeva R., Muradov A. 2009. Sosial sferanın iqtisadiyyatı. Bakı: “MEGA-H”, 2009, 237 s.

2. Azərbaycan Respublikasının konstruktiv coğrafiyası. I cild. (akad. B.Ə.Budaqovun redaktəsi ilə). Bakı: Elm, 2000. 268 s.

3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) üzrə həyata keçirilməli tədbirlər. // “Azərbaycan” qəzeti, 12 fevral 2004-cü il, s. 3-16.

4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” (2009-2013-cü illər). // “Azərbaycan” qəzeti, 15 aprel 2009-cu il, s. 1-3.

5. Əlirzayev Ə.Q. 2010. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı: “İqtisadiyyat Universiteti”, 326 s.

6. Бабаханов Н.А., Дамиргаяев Ш.К., Беляев В.Е., Мехралиев Б.Г. Географические проблемы территориальной организации системы общеобразовательных школ. Тематический сборник научных трудов «Проблемы территориальной организации инфраструктуры». Баку: «Бакинский Университет».1991, сс. 3-12.

## ИССЛЕДОВАНИЕФАКТОРОВ, ВЛИЯЮЩИХ НА ТЕРРИТОРИАЛЬНУЮ ОРГАНИЗАЦИЮ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ В ЛЯНКАРАН-АСТАРИНСКОМ ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКОМ РАЙОНЕ

**Ф.Г.Нифтиев**

Статья посвящена вопросам территориальной организации и развитию общеобразовательных школ, особенностям размещения этих учрежденийв Ланкаран-Астаринском экономико-географическом районе Азербайджана. Вместе с этим, в статье исследуются природно-географические условия и факторы, также как

экономические и социальные факторы, эффективное размещение общеобразовательных школ на территории региона.

## STUDY OF FACTORS İNFLUENCİNG ON THE TERRİTORİAL ORGANİZATİON OF SECONDARY SCHOOLS İN LENKARAN-ASTARA ECONOMİC-GEOGRAPHİC REGİON

**F.G.Niftiyev**

The article is devoted to the territorial organization and development of secondary schools,as well as the peculiarities of these educational facilities in the territory of Lenkaran-Astara region of Azerbaijan. Moreover, the studied issues include the role of natural and geographical condition, as well as the economic and social factors relevant to the efficient organization of secondary schools in this region.